# «Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının «Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında» Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- həmin Qanunun 10-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulan qaçqın statusu verilməsi haqqında vəsatətə baxılması qaydasının layihəsini hazırlasın və təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- öz səlahiyyəti hüdudlarında həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

- «Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında» Azərbaycan Respublikası Qanununun *10-cu və 12-ci maddələrinin ikinci hissələrində* nəzərdə tutulmuş «Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;
- həmin Qanunun 1-ci maddəsinin ikinci hissəsində *10-cu maddəsinin birinci hissəsində (ikinci halda), 12-ci maddəsinin birinci hissəsində (ikinci halda)* nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi həyata keçirir;
- həmin Qanunun 16-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında *Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti,* Azərbaycan

Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

- həmin Qanunun 17-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında *Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti,* Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və icra hakimiyyəti orqanları həyata keçirirlər;
- *həmin qanunun 9-cu maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi öz səlahiyyətləri daxilində həyata keçirirlər;*
- *həmin qanunun 6-cı maddəsinin beşinci hissəsində, 10-cu maddəsinin birinci hissəsində (birinci halda), 11-ci maddəsinin birinci hissəsinin altıncı abzasında, 12-ci maddəsinin birinci hissəsində (birinci halda), 13-cü maddəsinin ikinci hissəsində, 15-ci maddəsinin ikinci və üçüncü (hər iki halda) hissələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir.*
- ~~həmin Qanunun 13-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.~~

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 8 iyul 1999-cu il***

***№ 148***

***«Azərbaycan» qəzetində dərc olunmuşdur (17 iyul 1999-cu il, № 160) («LegalActs» LLC).***

***«Azərbaycan Respublikası Qanunvericilik Toplusunda» dərc edilmişdir (31 iyul 1999-cu il, № 7, maddə 410) («LegalActs» LLC).***

***6 mart 2008-ci il tarixli, 719 nömrəli; 9 avqust 2010-cu il tarixli, 313 nömrəli; 21 noyabr 2014-cü il tarixli, 369 nömrəli; 22 oktyabr 2015-ci il tarixli Fərmanlara əsasən dəyişikliklər və əlavələrlə («LegalActs» LLC).***

*© LegalActs LLC*